Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Dünyam qədər gözəlsən

**Şair-dramaturq Ramiq Muxtarın 80 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova** *Əməkdar mədəniyyət işçisi*

**Dünyam qədər gözəlsən –** Şair, dramaturq Ramiq Muxtarın 80 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 24 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Bölmə I
## Həyat və yaradıcılığı

**Bir əqidəm, bir amalım,**
**Bir işıqlı yolum vardır.**
**O yol böyük Vətən dərdim,**
**Azadlığın şüarıdır.**

Şairin böyüklüyünü təmin edən əsas cəhətlərindən biri də onun xalqa bağlılığındadır. Xalqın əsrlərdən bəri yaratdığı qiymətli sənət incilərindən istifadə etməyən, xalq yaradıcılığından qidalanmayan şair və yazıçının heç bir əsəri, şeiri uzun ömürlü ola bilməz. Sevimli şairimiz Ramiq Muxtarı insanlara sevdirən əsas cəhətlərdən biri də məhz onun xalq həyatını dərindən öyrənməsi, onun arzu və istəklərini öz əsərlərində əks etdirməsidir. Şeirimizin ağsaçlı ağsaqqalı Ramiq Muxtarın poeziyasının beşiyi Naxçıvan torpağı idi. Ramiq Muxtar (Nağıyev) 1942-ci il sentyabrın 5-də ziyalı ailəsində Azərbaycanın dilbər guşəsi Naxçıvan şəhərində anadan olmuşdur. Ü.Hacıbəyov adına 1 saylı Naxçıvan şəhər orta məktəbini bitirdikdən sonra sənədlərini M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsində təhsilini davam etdirmişdir. Təhsilini bitirdikdən sonra "Şərq qapısı" qəzetində ədəbi işçi, Şahbuz rayonundakı uşaq musiqi məktəbinin direktoru, Naxçıvan Nazirlər Soveti yanında bədən tərbiyəsi və idman komitəsinin sədri, Bakıda Nəsimi rayonundakı şahmat məktəbinin müdiri və bir çox vəzifələrdə çalışmışdır. Ramiq Muxtar şair olmaqla yanaşı həm də dama üzrə SSRİ idman ustası idi. 1984-1986 illərə qədər olan bir dövrdə Ramiq Muxtar Naxçıvan şəhər Dövlət filarmoniyasının direktoru vəzifəsində də işləmişdir. Ramiq Muxtar yaradıcılığa hələ uşaq yaşlarından başlamışdır. 11 yaşında olarkən, bədii yaradıcılıqla məşğul olan Ramiq Muxtarın şeirləri dövrü mətbuatda tez-tez çap olunmağa başlamışdır. Onun qələmə aldığı "Üfüqlər qızaranda", "Əgər sevirsənsə", "Müdirin aqibəti", "Əlvida, köhnə dünya", "Şəhərli

kürəkən”, “Doğma səmanın ulduzları”, “Qıl körpü” adlı pyesləri C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur. Naxçıvan Dövlət Dram Teatrında tamaşaya qoyulmuş bu pyeslər həmçinin Bakı, İrəvan, Ağdam, Qazax Dövlət Dram Teatrlarında da uğurla tamaşaya qoyulmuşdur. Ramiq Muxtar həm də nəğməkar şair idi. Onun sözlərinə yazılmış 120-dən çox mahnı bəstələnmişdir. “Şeyx Sənan”, “Ölüm tanqosu”, və “Balet liberretoları” nın müəllifi idi. Respublikada keçirilən bir çox müsabiqələrdə onun sözlərinə bəstələnmiş mahnılar 8 dəfə birincilik mükafatına layiq görülmüşdür. Ulu öndərimiz Heydər Əliyevin şəxsi tapşırığı ilə “Dünya Azərbaycanlılarının Birlik Nəğməsi”ni bəstəkar Nəriman Məmmədovla birlikdə yazmışdır. Həmçinin, Azərbaycan jurnalistlərinin himnini bəstəkar Eldar Mansurovla birlikdə yazmışdır. Bir çox tanınmış müğənnilər, xalq artistləri şairin sözlərinə bəstələnmiş mahnıları sevə-sevə ifa etmiş və bu mahnılar onların ifasında çox uğurlu alınmışdır. Yaradıcılığı həmişə yüksək qiymətləndirilən Ramiq Muxtar 1980-cı ildən SSRİ Yazıçılar İttifaqının üzvü, “Rəsul Rza” Beynəlxalq mükafatının laureatı, prezident təqaüdçüsü olmuşdur. Həmçinin, Gürcü-Azərbaycan xalqlarının dostluğundan bəhs edən “Şəhərli kürəkən” pyesinə görə Gürcüstanın ali ordeni olan “Şərəf” ordeninə layiq görülmüşdür.

## Bölmə II.
## Yubiley tədbirlərinin keçirilməsi.

Bildiyiniz kimi, bu il istedadlı, bitkin qələmə malik, gözəl insan Ramiq Muxtarın 80 illik yubileyi qeyd olunur. Bu münasibətlə respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Yubiley tədbirlərinin keçirilməsi ilə bağlı tədbirin planı tutulur. Plana əsasən ilk növbədə kitab sərgisi təşkil olunur. Kitab sərgisi əsasən kitabxananın oxu zalında təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Şeirimizin ağsaçlı ağsaqqalı Ramiq Muxtar-80", "Sevilən şair Ramiq Muxtar-80" və s. "Ramiq Muxtar-80" adlı sərginin nümunəsini sizlər üçün veririk:

1.Başlıq: "Ramiq Muxtar-80" adlı foto sərgi.
2. Kitablarının nümayişi.
3.Görkəmli insanların şair-dramaturq Ramiq Muxtar haqqında söylədikləri.
4. Dövrü mətbuatda çap olunmuş məqalələrin kartotekası.
5. Şeir parçası.

Sülh xalqın azadlığı
Sevinci, vüqarıdır.
Sülh səadət dünyası
Ömrün xoş baharıdır.

Sülh insan əməyinin
Ürəyidir, gözüdür.
Sülh sadə insanların
Ən sevimli sözüdür.

Bu gün yaradıcılığından söz açdığımız ziyalılığı yaradıcılığına, yaradıcılığı ziyalılığına bəzək olan qələm sahiblərindən biri də Ramiq Muxtardır. Ramiq Muxtar günü-gündən püxtələşən, üslubunu sabitləşdirən, təkrarolunmaz obrazlar yaradan şairlərdən idi. Çağdaş poeziyamızda tanınan şairlər sırasında Ramiq Muxtarın adı tez-tez çəkilir. Ramiq Muxtar öz dəsti-xətti ilə seçilən, şairlərimizdəndir. Şairin 80 illik yubileyi bu gün respublikamızın bir çox yerlərində məktəblərdə, gimnaziyalarda, kitabxanalarda və bir çox təhsil müəssisələrində qeyd olunur. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Ramiq Muxtarın yubileyi münasibətilə bir çox silsilə tədbirlər planı hazırlanmışdır. Belə tədbirlərin hazırlanmasında məqsədimiz Ramiq Muxtar yaradıcılığını yaxından izləmək, onun qələmə aldığı şeirləri, pyesləri, romanları bir daha oxuculara sevdirməkdən ibarətdir. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Ramiq Muxtarın yaradıcılığının geniş şəkildə təbliği üçün “Ramiq Muxtar-80” adlı foto sərgi hazırlanmışdır. Foto sərgidə Ramiq Muxtarın həyat və fəaliyyəti haqqında bir sıra maraqlı fotolar öz əksini tapmışdır.















Şair-dramaturq, prezident təqaüdçüsü Ramiq Muxtar yaradıcılığını yaxından izləmək üçün keçiriləcək tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsində ilk olaraq Ramiq Muxtarın həyat və yaradıcılığından bəhs edən slayd nümayiş olunur. Daha sonra şairin "Azərbaycan" nəşriyyatı tərəfindən 2007-ci ildə nəşr olunmuş "Seçilmiş əsərlər" adlı kitabının müzakirəsinə başlanılır. Bu cilddə müəllifin altmışa yaxın şeiri və mahnı mətnləri, bir poeması, üç pyesi daxil edilmişdir. Onun kitabdakı pyesləri Bakı, İrəvan, Naxçıvan, Ağdam, Qazax teatrlarında tamaşaya qoyulmuş və ciddi marağa səbəb olmuşdur. "Üfüqlər qızaranda", "Müdirin aqibəti", "Əlvida, köhnə dünya", "Əgər sevirsənsə", "Şəhərli kürəkən", "Doğma səmanın ulduzları", "Qıl körpü" pyesləri dramaturji ustalıq, konfliktlərin gərginliyi, qəhrəmanların daxili mübarizəsi, hadisələrin dərinliyi baxımından nəzər-diqqəti cəlb etmiş, müəllifin yaradıcılıq uğurları kimi dəyərləndirilmişdir. Ramiq Muxtar öz pyeslərində duyub-dərk etdiyi mənəvi aləmin dərinliklərinə üz tutmuş, sanki tamaşaçını bu aləmin təmizliyini, zərifliyini kobudluqlardan, namərdliklərdən qorumağa çalışmışdır. Bu əsərlərdə ötəri hisslərə yer yoxdur, mənəvi narahatlığın həyəcan siqnalı var. Dramaturq öz qəlbindəki mənəvi ağrıları ustalıqla qəhrəmanlarının həyatına, taleyinə köçürmüşdür. Kitabdakı "Şəhərli kürəkən" adlı iki hissəli psixoloji pyesdə isə hadisələr Gürcüstanda cərəyan edir. Maraqlıdır ki, gürcülərə məxsus şən, şux söhbətlər, duzlu-məzəli zarafatlar əsər boyu bir-birini əvəz edir. Ancaq şən söhbətlərin nüvəsində dərin bir kədər, zarafatların daxilində həyatın ciddi ironiyası var. Sandro və Maryanın təyyarə qəzasında ölmüş oğlanlarının yadigarı olan Nona Moskvada təhsil alır. Nənə-babanın canlarından artıq sevdikləri Nona şəhərdə tanış olub adaxlandığı Zurabla kəndə gəlir. Məlum olur ki, Zurabın atası Quram nazir müavini, anası

Yelena iş adamıdır. Onların yeganə arzuları övladlarının xoşbəxtliyini görməkdir. İlk baxışdan hər şey çox sadə və gözəldir. Amma məlum olur ki, təlatüm arxadadır. Nona qonşuları Nəbi kişinin oğlu Qədirə də söz veribmiş ki, təhsilini bitirəndən sonra ona ərə gedəcəkdir. Nəbi kişi qonşusu və cəbhə dostu Sandrodan üz döndərir, ancaq Qədir şəhərli kürəkənə ərə gedib Tiflisdə yaşayan Nonanın yalqız qoyduğu qocaları tez-tez yoluxur, onlara hər cür köməklik edir.

Sandro Tiflisə, təzə qohumlarıgilə gedəndən sonra vəziyyət daha da gərginləşir: məlum olur ki, Nona zahiri parıltıya - Zurabın şirin dilinə, yalançı vədlərinə aldanıb. Var-dövləti hər şeydən uca tutan nazir müavini hər cür alçaqlığa qol qoyur. Yelena da əxlaqca təmiz deyil.

Sandro Quramı görən kimi tanıyır: onlar bir cəbhədə döyüşmüşlər. İndiki nazir müavini cəbhədə də alçaqlıq etmiş, həbs olunmuş, həbsdən qaçmışdır. Adını dəyişərək nazir müavini pilləsinə qədər yüksəlmiş, indi də öz nalayiq əməllərini davam etdirir. Hadisələrin sonu aydınlıqla bitir. Nona doğma kəndə - öz əvvəlki saflığına, zərifliyinə, təmiz adamların arasına qayıdır.

İki hissəli "Qıl körpü" pyesinin qəhrəmanı Qulam Gözəloviç də sabiq nazirdir. O, da pozğun bir həyat yaşamış, vəzifəsindən sui-istifadə edərək çoxlarının bədbəxtliyinə səbəb olmuşdur. Pozğun həyat keçirdiyi katibəsi Nazanı ərə verməklə öz günahını ört-basdır etməyə çalışan Qulam Gözəloviç özü kimi nadürüst əməllər sahibi Hacı Zərdüşt, qayınları Əlağa, Vəlağa, müharibə veteranı Tağı müəllim, Zəki doktor kimiləri başına toplayıb. Qulamın hər sözü onlar üçün qanundur. Lakin sürücüsü Rasim onun təklifi ilə razılaşmır, Naza ilə evlənmək müqabilində Qulamın ona vəd etdiyi firavan həyatı qəbul etmir.

Müəllif pyesdə maraqlı bir üsuldan istifadə edir: əsər Qulamın son günlərinin təsviri ilə başlayır və bu vəziyyətdə də davam edir. Qulamı ittiham edən qəhrəmanlar səhnədə yox, zalda, tamaşaçıların arasındadırlar. Onlar hadisələrə fəal müdaxilə edir, dinamikanı gücləndirirlər.

Əsərdə Qəşəng xanım, Gülya, Lətif, Əbil kimi maraqlı və yaddaqalan obrazlar vardır. Bu əsərlərdə müəllifin niyyəti çox saf və təmizdir: o, həyatı öz nuruna bələyən işığın, ürəkləri riqqətə gətirən saflığın, təmizliyin, mərdliyin tərəfindədir.

Müzakirədə şairin qələm dostları onun keçdiyi həyat yolundan oxuculara maraqlı məlumatlar verir, şairlə olan xatirələrini bölüşürlər.

Kitabxanalarda oxucular tərəfindən sevilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecənin I hissəsi Ramiq Muxtarın keşməkeşli həyat yolundan bəhs edir, II hissə yəni bədii hissədə şairin şeirləri ilə yanaşı, pyeslərindən səhnəciklər göstərilir. Tədbirdə ədəbiyyat müəllimləri ilə yanaşı, şair və yazıçıların, tələbələrin, şagirdlərin iştirak etməsi məqsədəuyğundur. **“Ramiq Muxtar-80”** adlı ədəbi-bədii gecənin ssenarisini sizlər üçün təqdim edirik: Gecə sözləri Ramiq Muxtara, musiqisi bəstəkar Ramiz Mustafayevə aid olan “Sülh” nəğməsi ilə başlayır. Musiqi sədaları altında aparıcılar səhnəyə daxil olur.

**I Aparıcı:** **Anamın gözlərini gördüm sənin gözündə,**
**Bir az da oxşarlıq var, söhbətində, sözündə**
**Sil gözünün yaşını mən görməyim üzündə,**
**Onsuz da dərdli könlüm içim-içim ağlayır.**
**Anama olan sevgim məni sənə bağlayır.**

**II aparıcı:** Əziz və hörmətli qonaqlar! Sizin hər birinizi salamlayır və xoş gəlmisiniz deyirik! Bildiyiniz kimi, bu il şair dramaturq Ramiq Muxtarın 80 illik yubileyi respublika səviyyəsində qeyd olunur.
**I aparıcı:** 1942-ci il, sentyabrın 5-də Naxçıvan şəhərində ziyalı ailəsində bir uşaq dünyaya göz açdı. Gəlişi ilə ailəyə sevinc gətirən şair lap erkən yaşlarından yaradıcılıqla maraqlanmağa başladı. 11 yaşından bədii yaradıclıqla məşğul olan şairin şeirləri, dövri mətbuatda tez-tez çap olundu. "Üfüqlər qızaranda", "Əlvida, köhnə dünya", "Doğma səmanın ulduzları" və digər pyesləri Bakı, İrəvan, Naxçıvan, Qazax Dövlət Dram teatrlarında uğurla tamaşaya qoyuldu.
**II aparıcı:** Qeyd etdiyimiz kimi, nəğməkar şair Ramiq Muxtarın sözlərinə 120-dən artıq mahnı bəstələnib. Respublikada keçirilən hərbi vətənpərvərlik mövzusundakı müsabiqələrdə onun sözlərinə bəstələnən mahnılar 8 dəfə mükafata layiq görülüb.
(Oxucular səhnəyə daxil olur. Bəstəkarı Nəriman Məmmədova, sözləri Ramiq Muxtara aid olan "Dünya Azərbaycanlılarının Birlik Nəğməsi"ni İfa edirlər.)
**I Oxucu:**
Azərbaycan! Qoca Şərqə ey açılan nur pəncərə,
Zaman-zaman sən boy atdın, gəlib çatdın əsrlərə.
Qismətinə yazılsa da min işgəncə, kədər, əzab,
Sən yadlara baş əymədin, hər zülümə gətirdin tab.
Öz sinəni sipər etdin azadlığın yollarında,
Dağ oynadan güc varımış Heydər Ata qollarında.
Əyəmmədi qamətini qan püskürən yağı düşmən,
And yerimiz tək sən oldun, Azərbaycan-Ana Vətən!
Ulduz olub səpələndi övladların yer üzünə,
Bayraq etdik ədaləti haqq işinə, haqq sözünə.
Unutmadıq Dədə Qorqud, şah Xətai öyüdünü,
Təzə əsr bəxş eylədi xalqımıza Birlik günü.

**N ə q ə r a t:**

**II oxucu:** Qürbət eldə, qərib yurdda yaşasaq da,
Yerin altda, göyün üstə dolaşsaq da,
Gözlərindən çox uzaqda biz olsaq da,
Ürəyimiz səninlədi bizim hər an,
Ey müstəqil Vətənimiz Azərbaycan, Azərbaycan!

**I aparıcı:** Dünya Azərbaycanlılarının I qurultayında əbədiyaşar prezidentimiz Heydər Əliyevin şəxsi göstərişi ilə Ramiq Muxtar bu şeiri xalq artisti Nəriman Məmmədovla birgə yazmış, bu şeir böyük uğur qazanaraq “Respublika”qəzetində çap olunmuş, qurultayın açılışı günü qonaqlara paylanmışdır.

**II aparıcı:** Ramiq Muxtar nəğməkar şair kimi populyardır. Onun sevə-sevə qələmə aldığı “Sənsən Xilaskarım” adlı şeiri də mahnı müsabiqəsində mükafata layiq görülmüş, bir çox tanınmış müğənnilərin ifasında səslənmişdir.

Gəlin oxucuların ifasında “Sənsən Xilaskarım” adlı şeiri dinləyək. Oxucu səhnəyə daxil olur. (Ulu öndərimiz H.Ə.Əliyevə həsr olunub)

**I Oxucu:**

Nurlu bir aləmsən günəşə bənzər,
Şöhrətin ağızda dillərdə gəzər.
Qoşa addımlayır səninlə zəfər.
Hünərin yerlərə, göylərə sığmaz,
Övladı sən olan Vətən basılmaz.

Təzədən gül açdı Vətən torpağı,
Yandı ürəklərdə ümid çırağı,
Müqəddəs bir anddır dövlət bayrağı
Bu bayraq altında olağın bir can
Ucalsın səninlə qoy Azərbaycan.

Çıxdın hər sınaqdan mətin üzü ağ,
Həyat amalındır qurub yaratmaq.
Tarixdə əbədi izin qalacaq

Güləcək səninlə ilk baharımız,
Sənsən Heydər Ata xilaskarımız.

**I Aparıcı:** 1980-cı ildən Yazıçılar İttifaqının üzvü olan Ramiq Muxtar həmçinin “Rəsul Rza” Beynəlxalq mükafatı laureatı idi. O, gürcü-Azərbaycan xalqlarının dostluğundan bəhs edən “Şəhərli kürəkən” pyesinə görə Gürcüstan Respublikasının ali mükafatı olan "Şərəf' ordeninə layiq görülmüşdür. İndi isə Ramiq Muxtarın iki hissəli “Şəhərli kürəkən” adlı pyesindən bir parçaya qulaq asaq. Səhnə dekorotiv ağaclar və evlə bəzədilir. İki oxucu səhnəyə daxil olur.
Hadisələr 1990-cı ildən bəri Gürcüstanın gürcülər və azərbaycanlılar yaşayan kəndlərinin birində cərəyan edir. Qoca Sandronun həyəti. Sandro həyətdə oturub səbət toxuyur. Bu vaxt Mariya nənə sevincək gəlir.
**I Oxucu (Mariya):** Aman Allah, nə gözəl gün, nə gözəl xəbər! Ay onun özünə də, adaxlısına da Mariya nənəsi qurban olsun!
**II Oxucu (Sandro):** Sənə nə olub, qarı, yoxsa cavanlığın yadına düşüb?
**I Oxucu (Mariya):** Durub mənimlə oynamasan deməyəcəyəm.
**II Oxucu (Sandro):** Yaxşı de, görək, bağrımı yarma.
**I Oxucu (Mariya):** Gözün aydın olsun, Sandro, Nona balamız adaxlısı ilə bu gün Tiflisdən kəndimizə gəlir. Bax, bu da məktub. Sən nə danışırsan qarı, kim ona məndən xəbərsiz nişan taxa bilər? (Sandro qəlyanını yandırır) Şadlan, Sandro, arzumuza çatmışıq. Ulu tanrı, mən səndən dünyalar qədər razıyam.
**II Oxucu (Sandro):** Heç yaxşı olmadı, axı, mən Nəbi kişiyə söz vermişəm. Kişinin yanında xəcalətli etdi. Eşitsə, narahat olacaq.
**I Oxucu (Mariya):** Nə etmək olar, Sandro, biz qocaların bu işdə heç bir təqsiri olmayıb. Nəbi kişi ilə oturub əməlli-başlı danışarsan. Zəmənə uşaqları belədir də, öz bildiklərini heç kəsə verməzlər.

**II Oxucu (Sandro):** Ay şeytan balası, bir gəl səni də, o şəhərdən tapıb gətirdiyin adaxlını da bir kökə salım ki, gəl görəsən.
**I Oxucu (Mariya):** Zarafat edirsən, Sandro, sən məndən də çox sevinirsən. Hirsini ye, adam da bu xoş gündə tənbəki sümürər. Sandro bu gün çox şərab içməlisən, bildinmi, çoxlu şərab.
**II Oxucu (Sandro):** Deyirəm Nona, gərək şəhərliyə ərə getməyəydi.
**I Oxucu (Mariya):** Şəhərli, kəndli nə fərqi var. Təki özünün ürəyincə olsun, xoşbəxt yaşasınlar.
**II Oxucu (Sandro):** Nə bilirik, necə adamdır, kimdir, nəçidir? Nəbi kişinin oğlu Qədir bizə yaxşı kürəkən olardı, Mariya...heyif...çox heyif...
**I Oxucu (Mariya):** Boş-boş danışırsan Sandro, qız adaxlısı ilə gəlhagəldədir, sən isə oturub ona adaxlı gəzirsən. Hər halda Nona ağıllı qızdır, nənəsi kimi yüz seçməsə bir sevməz. Elə mən də sənə gələndə çox götür-qoy elədim ki, bu avaradan görən mənə ər olar, ya yox? Görürsən, düz əlli ildir bir balınca baş qoyuruq, hələ də bir-birimizdən bezməmişik.
**II Oxucu (Sandro):** Onu düz deyirsən, Mariya, sən meymunu mən avaradan başqa heç kim almazdı. Yaxşı məni toruna saldın.
**I Oxucu (Mariya):** Özünə yığış ha, vallah sənə bir toy tutaram ki, bütün kənd yığışıb bura gələr. Tora bax, bir buna bax. Yekəburun.
**II Oxucu (Sandro):** Ona, inanıram, qarı, o iş əlindən gələr.
**I Oxucu (Mariya):** Yaxşı, məni cin atına mindirmə, dur süfrəni bəzəyək, indi harda olsa, gəlib çıxarlar.
**II Aparici:** Hörmətli qonaqlar, gördüyünüz kimi, məhəbbətin, sevginin sərhəddi olmur. İnsan sevəndə onun milliyyəti də o qədər əhəmiyyət kəsb etmir. Sevgi həmişə hər şeyə qalib gəlir. Pyesin sonu maraqlı bir epiloqla başa çatır. İstərdim ki, bu epiloqla da tədbirimizi başa vuraq. (Sandro həyətdə oturub qəlyan çəkir. Mariya corab toxuyur. Nona gəlib kənardan onlara tamaşa edir.)

**II Oxucu (Sandro):** Nona, mənim balam, bu sənsən, gözlərimə inana bilmirəm.
**I Oxucu (Mariya):**
Nonadır, özüdür.
**II Oxucu (Sandro):**
Ürəyimə dammışdı ki, sən əvvəl-axır kəndimizə öz evimizə qayıdacaqsan, mənim ağıllı, gözəl balam. Çünki bu təmiz, halal ocaq heç vaxt səni bağışlamazdı.
**I Oxucu (Mariya):** Mən səni bir daha gözümdən kənara qoymayacağam, Nona.
**II Oxucu (Sandro):** Şükür o böyük Tanrıya, biz yenə də bir yerdəyik. Bu gün nə gözəl gündür. Çiskin yağış yağır, quşlar öz nəğmələrini oxuyurlar. Ağaclar da həmişəkindən daha gözəl görünür. Gedək evimizə qızım, bu ev, bu ocaq sənsiz yaman qəribsəyib.
**III Oxucu (Nona):** Yox baba, mən bu günahlarımla ismət ocağı olan evə girə bilmərəm. Qoy bu yağış mənim bütün günahlarımı yuyub aparsın, sonra...
**II Oxucu (Sandro):** Yox, mənim Nonam, bu sevgi yağışıdır. Bu yağış sənin qəlbinə sevgi, məhəbbət gətirəcəkdir. Bir səmaya bax. Sənin gəlişinlə günəş qara buludları təzədən qovmağa başladı. Sabah kəndimizdə Nonalı yeni səhər açılacaqdır. Nonalı günəşli səhər. Hamı axışıb sənin görüşünə gələcək. Bütün kəndimiz gəlişinə sevinəcəkdir. Ey yeri, göyü yaradan ulu Tanrı. Mən qoca Sandro ilə Mariya qarının sənə uçan dualarını qəbul et. Sən bizi öz sevimli balamıza qovuşdurdun. Bizə qol-qanad, təzədən yaşamaq həvəsi verdin. Varlığın qarşısında baş əyirəm. (İştirakçılar səhnəni tərk edir. Sözləri şairin, musiqisi Nəriman Məmmədova aid olan “Bağışla”musiqisi səslənir. )

Oxucular səhnəyə daxil olur. “**Naxçıvanın qızları” adlı şeiri söyləyirlər. ( şeir şairə Kəmalə Ağayevaya həsr olunub.)**

**Gözəllikdə yoxdu tayı,**

**Sevgidir əzəl payı,**

**Hünəri ulduz sayı,**

**Naxçıvanın qızları.**

**İşvəlidir, nazlıdır,**

**Ədalıdır, duzludur,**

**Ürəkləri sözlüdür,**

**Naxçıvanın qızları.**

**Bir Araz sonasıdır,**

**Eşqində yanasıdır,**

**İgidlər anasıdır,**

**Naxçıvanın qızları.**

**Məhəbbətdən gözləri,**

**Yandırar arazları,**

**Göyün yer ulduzları,**

**Naxçıvanın qızları.**

**II Aparıcı:** Bəli, Könüllərin ilhama gəldiyi, təbiətin oyandığı, aləmə sevgi, yaşam eşqi pıçıldayan bir yaz gecəsində haqqında söz açdığımız bir şair-dramaturq Ramiq Muxtar dünyadan köçdü. O şair ki, "həyatda ən böyük qazancım dostlarımdır" deyirdi. O şair Ramiq Muxtar idi.

***Bir əqidəm, bir amalım,***
***Bir işıqlı yolum vardır.***
***O yol böyük Vətən dərdim,***
***Azadlığın şüarıdı...***

- misralarını yazan şairi insanlara sevdirən əsas cəhətlərdən biri də məhz xalq həyatına dərindən bələd olması, onun arzu və istəklərini öz əsərlərində dolğun, səmimi əks etdirməsi idi.

**I Aparıcı:** Mərhum şairi rejissor Tahir Tahiroviç rejissor, şair, dramaturq, futbol mütəxəssisi və nəhayət, gözəl insan kimi xarakterizə edir: "O, bunlara görə vaxtından tez qocalmışdı. Çünki ömrü boyu adlarını sadaladığım sahələrə ürəkdən yanaşırdı. Ən əsası dostlarının hər anda köməyinə gələrdi. Təsadüfi deyil ki, müəllifin yazdığı son şeirdən də bunu görmək mümkündür:

***Sevdim insanları canımdan artıq,***
***Hər uğur, hər sevinc məni ucaltdı.***
***Bir mərdi bir namərd dara çəkəndə,***
***Dərd mənə güc gəldi, məni qocaltdı...".***

El adamı idi. Sadə, səmimi və təvazökar. Heç kimin xətrinə dəyməyən lirik xasiyyəti vardı. O, həyatını da şeirləri kimi gerçək yaşayıb. Şair-dramaturq Ramiq Muxtar qələmə aldığı nəzm, nəsr, dram əsərlərində, bir qayda olaraq, xalq yaradıcılığı, xalqın taleyi, dərdi-səri, millətlərin dostluğu və qardaşlığına böyük diqqət yetirmişdir. Məhz bu məziyyətlərinə görə də şairin məqsədyönlü, faydalı fəaliyyəti, əsərlərinin dili, bədii üslubu, siqləti onu xalqa sevdirmiş, insanlar arasında böyük maraq və rəğbət oyatmışdır.

Ramiq Muxtarın xalqımızın vüqarlı qızı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya ithaf etdiyi "Mənim oyaq yuxularım" povesti də ədəbi mühitimizdə maraqla qarşılanmışdır.

"Mənim oyaq yuxularım" kitabına yazılan ön sözdə qeyd olunur ki, povestin əsas ideya xəttini, başlıca leytmotivini Azərbaycanın tarixən üzləşdiyi ədalətsizliklər, ermənilərin azərbaycanlı əhaliyə qarşı həyata keçirdikləri

qırğınlar, 1813-cü ildə Rusiya–İran sövdələşməsi nəticəsində imzalanan" Gülüstan" müqaviləsi ilə Azərbaycan torpaqlarının iki yerə parçalanması, Qarabağ həqiqətləri, digər ağrı-acılı məsələlər təşkil edir. Erməni işğalı nəticəsində torpaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin çəkdikləri əzab-əziyyətlər, yaşadıqları faciələr müəllif tərəfindən ürək ağrısı ilə vurğulanır.

Şair-dramaturqun yaradıcılığında mühüm yer tutan, sonsuz mehr və məhəbbətlə qələmə aldığı "Mənim oyaq yuxularım" povesti simvolik mənası, məndəricəsi, ədəbi manerası, cüjet xətti ilə diqqəti cəlb edir. Maraqlı və dərindən düşündürücü ideya-süjet xətti ilə şair novella janrından ustalıqla istifadə edərək müasir həyatımız və bu günümüzdə baş verən hadisələr fonunda faktlar və məlumatlar əsasında gördüyü yuxuları nəql edərək yeni məzmun və formada bir əsər yaratmışdır.




Əsərin məzmunu şairin gördüyü 13 yuxudan ibarətdir. Povestin başlanğıcında müəllif yazır: "Bütün bəşər övladlarına bəllidir ki, insan yatan vaxtı yuxu görür. Mən, 5 yaşından anadan yetim qalmış Ramiq Muxtar isə günün günorta çağı gözüaçıq vəziyyətdə yuxu görürəm... Bu "tərki dünyada" şair ayaqüstü xəyala-yuxuya gedir və atası Muxtar kişi ilə bərabər "səyahətə çıxıb" yuxusuna gələn obrazlarla görüşüb söhbət edirlər. Atası yuxuda oğluna yol göstərir, məsləhətlər verir. Şair oyanandan sonra yuxularını danışmağa və yazmağa başlayır.

Şair oyaq yuxularında Azərbaycan tarixinin müəyyən mərhələlərində xalqımıza qarşı təcavüzkarlıq siyasəti yeridən, millətimizin, torpaqlarımızın parçalanması və işğalına bais olanlar, müharibələrin, qırğınların, soyqırımlarının, terrorların

törədilməsinə rəvac verənlər, torpaqlarımızın işğal altında saxlanmasına yardım göstərənlər –Birinci Pyotr , İ.V. Stalin, Mixail Qorbaçov və onun əlaltıları , erməni katolikosu I Vazqen, “üç kəndirbaz” kimi təqdim olunan ATƏT-in Minsk qrupunun həmsədrləri və digər surətlər ilə söhbətlərində ermənilərin vəhşiliklərini, terrorçu bir toplum olmalarını sübut edən faktları qarşıya qoyur. Şairin bu məntiqli sübut, dəlil və faktları qarşısında həmin o şəxsiyyətlər öz tarixi səhvlərini etiraf edir, günahlarını boynuna alır və hətta Azərbaycan xalqından üzr istəyirlər.

Şair yuxularında, həmçinin Azərbaycanın böyük şəxsiyyətləri Məhəmməd Füzuli, Nəsrəddin Tusi, Mikayıl Müşfiq, Türkiyənin sabiq prezidenti Turqut Özal, Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze, Azərbaycanın sabiq prezidenti Əbülfəz Elçibəy, Əməkdar idman ustası Ələkbər Məmmədov və digərləri ilə görüşüb söhbət edir. Bu yuxularda Füzuli “Şəbi-Hicranı” dilə gətirib:” Mənim heykəlim öz Vətənimdədir, mən qürbət həyatı yaşamamışam...”, Mikayıl Müşfiq isə: “Mən də istərdim ki, Nizaminin, Füzulinin, Hüseyn Cavidin, Cəfər Cabbarlının və Səməd Vurğunun şərəfinə qoyulan heykəllərə bənzər ayaqüstü heykəlim ucaldılsın...”, Turqut Özal: “Dağlıq Qarabağa görə mənim ruhum çox narahatdır. Mən o zəfər gününü gözləyirəm. ..”, Eduard Şevardnadze: “...Mən inanıram ki, Azərbaycan Prezidenti İlham Əliyev atası Heydər Əliyevin şərəfli yolunu uğurla davam etdirəcək və tezliklə Dağlıq Qarabağda Azərbaycan himninin əzəmətli sədası eşidiləcəkdir. Amin!”- deyir.

Bəli, “bu gün yəqin ki, şairin ruhu rahatdır. O, Qarabağın azad olunduğunu görüb bu dünyadan köçdü. Şair vaxtilə “Əyəmmədi qamətini qan püskürən yağı düşmən, And yerimiz tək sən oldun, Azərbaycan - Ana Vətən!” - deyə yazmışdı. Səmimiyyət şairinin xatirəsi yaxşılıq etdiyi insanların, oxucu və

tamaşaçılarının, eləcə də sədaqətli dostlarının qəlbində əbədi yaşayacaq".

"Mənim oyaq yuxularım" son illər ədəbiyyatımızın nəsr əsərləri içərisində ideya-siyasi xətti, mövzu aktuallığı, müasirliyi, ədəbi yaradıcılıq vüsəti, bədii təcəssümü, orijinallığı, yığcam məzmun və məna dəyəri ilə diqqəti cəlb edir.

İnanırıq ki, ədəbiyyatımızda ictimai-bədii fəaliyyəti, poeziyamıza yeni nəfəs gətirən şeirləri, müasir həyatımızın yaşam tərzi və problemlərini əks etdirən dram əsərləri ilə layiqli yer tutan, oxucuların, tamaşaçıların məhəbbətini qazanan şair-dramaturq Ramiq Muxtarın yeni əsərinə də ədəbi ictimaiyyət tərəfindən yüksək dəyər veriləcəkdir.

79 yaşında dünyaya əlvida deyən tanınmış şair-dramaturq Ramiq Muxtarın "Yedək Qayıq" adlı şeir parçası ilə tədbirimizi bitiririk.

Məndə düz iki əsr yedək ömrü yaşadım.
Bu zülmü, əzabı kürəyimdə daşıdım.
Sarı, göygöz div oldu yol göstərən"qardaşım"
Nələr görmədi gözüm, nələr çəkmədi başım.
Qanımı, iliyimi "nuş" eləyib içdi o,
Varımın, dövlətimin arxasına keçdi o,
Mənə təzə ad qoyub türklüyümü dandı o,
Böyük Turan elini qatı düşmən sandı o.
Qaçdım haqqın dalınca, Haqdan kömək dilədim.
Haqq öz dərdin söylədi, Yaddan çıxdı öz dərdim.
Güc toplayıb özümdə qalxdım, durdum, dikəldim
Özümü şəhidliyə mən ölümə köklədim.
Azad olub qurtuldum bu ac divin əlindən.
İnanmıram ay qayıq mənim etdiyim hünər gələ sənin əlindən.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin hazırladığı ədəbiyyat siyahısı:**

Seçilmiş əsərləri : 2 cilddə. C.1. - Bakı: Azərbaycan, 2007. - 264 s.

**Məqalələri**

40 gün sənsiz... : Və yaxud gözəl bir insanın hekayəti // Səs . - 2011. - 4 fevral. - S. 10.

Arsenal - Çelsi: şeir // Xalq qəzeti . - 2019. - 30 may. - S. 12.

Baş komandan // Səs . - 2019. - 26 dekabr. - S. 5.

Bir ilin ayrılığı... // Səs . - 2012. - 7 yanvar. - S. 10.

Dost kəlməsi tək hecadır bölünməz... : Qabilin vəfatından 40 gün keçir // Ədəbiyyat qəzeti. - 2007. - 11 may. - S. 6.

Gözəl insan, unudulmaz dost: Nahid Hacızadə haqqında // Yada düşdü. - 2018. - № 1. - S. 12.

İslam Oyunları // Səs . - 2017. - 7 may. - S. 15.

Qızıl toy: ürək dostum, Əli müəllimə // Səs . - 2014. - 14 sentyabr. - S. 14.

Mənim general dostum // Respublika. - 2000. - 9 dekabr. - S. 4.

Peşəkar yaltaq // Ədəbiyyat qəzeti . - 2011. - 22 iyul.- S. 5.

Tofiq Kazımov haqqında xatirələrim // Səs. - 2017. - 21 sentyabr. - № 170. - S. 13.

Türk oğlu, Türk Ərdoğan: şeir // Respublika. - 2018. - 15 sentyabr. - № 205. - S. 4.

Unudulmaz Hüseyn İbrahimovun xatirəsinə // Respublika . - 2019. - 9 oktyabr. - S. 7.

Zəhmət dolu illər Əli Saləddin-60 // Ədəbiyyat qəzeti . - 1997. - 24 yanvar. - S. 7.

I yuxu: I Pyotr // Səs. - 2016. - 11 noyabr. - S. 8.

II yuxu // Səs. - 2016. - 16 noyabr. - S. 12.

III yuxu: İ.V.Stalin // Səs. - 2016. - 17 noyabr. - S. 13.

IV yuxu: Əbülfəz Elçibəy // Səs . - 2016. - 23 noyabr. - S. 12.

V yuxu: Turqut Özal // Səs. - 2016. - 24 noyabr. - S. 12.

VI yuxu: Minsk Qrupu // Səs. - 2016. - 25 noyabr. - S. 12.

VII yuxu: Məhəmməd Füzuli // Səs. - 2016. - 30 noyabr. - S. 12.

VIII yuxu: Əməkdar idman ustası Ələkbər Məmmədov // Səs. - 2016. - 3 dekabr. - S. 13.

IX yuxu: Eduard Şevardnadze // Səs. - 2016. - 7 dekabr. - S. 12.

X yuxu: Atam Muxtar kişi // Səs. - 2016. - 9 dekabr. - S. 8.

XI yuxu: Aşıq Şəmşir // Səs. - 2016. - 14 dekabr. - S. 13.

XII yuxu: Şeyx Nəsrullah // Səs. - 2016. - 15 dekabr. - S. 13.

XIII yuxu: Mikayıl Müşfiq // Səs. - 2017. - 3 mart. - № 40. - S. 12.

**<u>Haqqında məqalələr</u>**

**Axundlu Y.** Seçilmiş əsərləri: rəylər // Ədəbiyyat qəzeti. - 2010. - 16 iyul. - S. 5.

**Azəri L.** Bu dünyada bir Ramiq Muxtar vardı // Mədəniyyət. – 2021. – 2 iyul. – S. 5.

**İlyasoğlu R.** Yaradıcılıq gecəsi // Respublika. - 2010. - 17 iyul. - S. 8.

**Qabiloğlu M.** Seçilən şairin seçilmiş əsərləri // Xalq qəzeti. - 2008. - 21 noyabr. - S. 7.

**Məmmədzadə R.** Əlvida, Ramiq Muxtar! // Səs . - 2021. - 21 may. - S. 12-13.

Mənim oyaq yuxularım: şair-dramaturq Ramiq Muxtar haqqında // Səs. - 2016. -9 noyabr. - S. 8-9.

**Mirzəbəyli İ.** Qədim yurdun bugünkü cəlalının vəsfi // Xalq qəzeti. - 2010. - 25 aprel. - S. 8.

**Sadıqoğlu A.** Xalq, Vətən, torpaq sevgisi // Xalq qəzeti . - 2017. - 7 may. - S. 15.

**Sadıqoğlu A.** Şair-dramaturq Ramiq Muxtarın 70 illik yubiley gecəsi // Xalq qəzeti. - 2012. - 23 dekabr. - S. 7.

**Sadıqoğlu A.** Şair-dramaturq Ramiq Muxtarın 75 illik yubiley gecəsi // Xalq qəzeti. - 2017. - 13 dekabr. - S. 10.

Yaradıcılıq gecəsi // Ədəbiyyat qəzeti. - 2010. - 16 iyul. - S. 5.

# Dünyam qədər gözəlsən

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**